# Dəmir Gədəbəyli

Şair, ədəbiyyatşünas, tərcüməçi Qasımov Dəmir Müseyib oğlu 1939-cu il martın 19-da Gədəbəy rayonunun Ataxal kəndində müəllim ailəsində anadan olmuşdur. Böyük Qaramurad kənd orta məktəbində (1946-1956) təhsil almış, sonra ADU-nun filologiya fakültəsini (1956-1961) bitirmişdir. Əmək fəaliyyətinə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin tarixi verilişlər baş redaksiyasında müxbir kimi başlamışdır. Hazırda "Təfəkkür" Universitetinin filologiya fakültəsində dosent vəzifəsində çalışır.

Ədəbi aləmə 1965-ci ildə Gədəbəy rayon qəzetində çıxan "Məktəb" şeiri ilə daxil olmuşdur. Həmin vaxtdan respublikanın dövri mətbuatında müntəzəm çıxış edir. "Azərbaycan sovet poeziyasında qoşma janrı" mövzusunda namizədlik dissertasiyasını 1975-ci ildə, "Azərbaycan xalq dastanlarının poetikası" mövzusunda doktorluq dissertasiyasını isə 1987-ci ildə müdafiə etmişdir.

Keçmiş SSRİ və xarici ölkə xalqları ədəbiyyatından tərcümələr etmişdir. Son dövr hadisələri onun "Bu qəm sənə sığmaz dünya". "Azərbaycan harayı", "Əsgər anası" və s. mahnılarında ifadəsini tapmışdır. Onun üç yüzdən artıq şeirinə mahnı bəstələnmişdir.

● **Gülarə QULİYEVA**